# İctimai elmlər

*UOT 32*

***S.S.Əliyeva***
*Milli Aviasiya Akademiyası*
*solmaz2021@mail.ru*

## AZƏRBAYCANIN MÜASİR SİYASƏTİNDƏ MULTİKULTURALİZM KONSEPSİYASI

***Açar sözlər*: *multikulturalizm, tolerantlıq, çoxmədəniyyətlilik, din, ənənə***

Məqalədə qeyd edilir ki, Azərbaycan humanizm və tolerantlıq prinsiplərinə sadiq olan bir dövlətdir. Burada müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayırlar. Azərbaycanda həyata keçirilən multikulturalizm dövlət siyasəti millətlərarası münasibətlərin inkişafı və qorunub saxlanılmasına yönəldilmişdir.

***С.С.Алиева***

## КОНЦЕПЦИЯ МУЛЬТИКУЛЬТУРАЛИЗМА В СОВРЕМЕННОЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *мультикультурализм, толерантность, многокультурность, религия, традиция*

В данной статье рассматривается Азербайджан, как государство, соответствующее принципам гуманизма и толерантности, где представители разных народов, религий, культур живут в атмосфере мира и дружбы. Государственная политика мультикультурализма, проводимая в Азербайджане, направлена на сохранение и дальнейшее развитие межнациональных отношений.

***S.S.Aliyeva***

## THE CONCEPT OF MULTICULTURALISM IN THE MODERN POLITICS OF AZERBAIJAN

***Keywords****: multiculturalism, tolerance, religion, tradition*

The article mentions that Azerbaijan is a state committed to the principles of humanism and tolerance. Here, representatives of different nations, religions and cultures live in peace and friendship. The state policy of multiculturalism implemented in Azerbaijan is aimed at the development and preservation of inter-ethnic relations.

Azərbaycan humanizm və tolerantlıq prinsiplərinə sadiq olan bir dövlətdir. Burada müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayırlar. Azərbaycanda həyata keçirilən multikulturalizm dövlət siyasəti millətlərarası münasibətlərin inkişafı və qorunub saxlanılmasına yönəldilmişdir.

Multikulturalizm 1960-cı illərin sonunda Kanadada meydana gəlmişdir. Termin kimi o, 1970-ci illərdə ədəbiyyatda əks olunmuşdur.

Multikulturalizm nə deməkdir? – çoxmədəniyyətlilik. Çoxmədəniyyətlilik dedikdə isə, etnik, irqi, dini və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən dəyərlər nəzərdə tutulur.

Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikulturalizmin vətəndaşların həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Multikulturalizm ideyaları ictimai şüurda möhkəmlənir. Azərbaycanda multikulturalizmin dövlət siyasəti və həyat tərzinə çevrilməsi onun yüksək inkişaf mərhələsindən xəbər verir.

Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasət deməkdir. Multikulturalizm zəif və güclü formalara malikdir. Multikulturalizmin əsas məqsədi – mədəni müxtəlifliyin müdafiə olunmasıdır.

Etnik və konfessional qruplar arasındakı siyasətin həyata keçirilməsi üçün əsas olan müasir Azərbaycanda tətbiq edilən "Multikulturalizm" termini tamamilə başqa bir məna kəsb edir.

Rus tədqiqatçısı A.Q.Nesterovun qeyd etdiyi kimi, multikulturalizmin Azərbaycan konsepsiyası ancaq "ənənəvi" multikulturalizmlə əlaqələndirilə bilər ki, bu çərçivədə də müəyyən ərazidə tarixən formalaşan etnik və konfessional qruplar arasındakı münasibətlər təhlil edilir.

Multikulturalizm cəmiyyətdə təzahür edən çoxnövlü mədəni müxtəlifliyin növlərindən biridir. Bundan başqa, biz multikulturalizmlə əlaqədar olan izolyasionizm (təcrid etmə), assimilyasiya və aparteidi kimi digər təzahürləri də qeyd edə bilərik.

XX əsrin əvvəllərində görkəmli etnoqraf Vəliyev (Baharlı) göstərmişdi ki, Azərbaycan etnoqrafik muzeydir. Hal-hazırda Azərbaycan Respublikası məkanında 80-dən çox azsaylı xalq yaşayır. Bu azsaylı xalqlar qafqazdilli, irandilli, türkdilli qruplara aid olub ölkə əhalisinin etnokonfessional tərkibinə daxildirlər. Onların sırasında udiləri, ingiloyları, xanlıqları, qırızları, buduqları, tatları, talışları, rusları, ləzgiləri, yəhudiləri və digərlərini göstərmək olar. Bu azsaylı xalqların bir hissəsi Azərbaycanın köklü əhalisi olub, başqa bir hissəsi

isə tarixin müxtəlif mərhələlərində baş verən sosial-siyasi proseslərin nəticəsi olaraq ölkə torpaqlarında məskunlaşmışlar.

**Multikulturalizmin Azərbaycan modeli**

Ümummilli lider Heydər Əliyev siyasi multikulturalizmin banisi kimi ilk dəfə olaraq multikulturalizmi Azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim etdi.

Cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin qorunmasına yüksək önəm verən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: “Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir”.

Ulu öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya göstərmişdi.

- “Azərbaycan əhalisinin çox milli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq”.
- “Ərazimizdə yaşayan Azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır. Azərbaycanlı sözü bizi həmişə birləşdirib”.
- Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır.
- Respublikada bütün demokratik prinsiplər, insan hüquqlarının müdafiəsi, siyasi-plüralizm, söz azadlığı, sahibkarlıq azadlığı, vicdan azadlığı, dini etiqad azadlığı, milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqi bərabərliyi təmin edilsin (Heydər Əliyev).

Multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir: “Din və dövlət”, “Dövlət dili”, “Bərabərlik hüququ”, “Fikir və söz azadlığı”, “Milli mənsubiyyət hüququ”, “Ana dilindən istifadə hüququ”.

**Prezident İlham Əliyev – müasir dövrdə Azərbaycan multikulturalizminin siyasi dayağı kimi**

Multikulturalizm siyasəti ölkənin demokratik inkişafının, insanların hüquq və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsidir.

İlham Əliyev IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumun açılış mərasimində söyləmişdir: “Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Eyni zamanda, bu, bizim həyat tərzimizdir, multikulturalizm ideyaları hər zaman ölkəmizdə mövcud olmuşdur. Tarixi dönəmdən və siyasi sistemdən asılı olmayaraq, xalqımız hər zaman istər ölkədə, istərsə də onun hüdudlarından kənarda multikulturalizmi fəal müdafiə və təşviq etmişdir” (6).

Milli azlıqlar öz milli mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaratmaq hüquqlarından tam istifadə edirlər. Hazırda

respublikamızda onlarla milli mədəniyyət mərkəzi fəaliyyət göstərir ki, onların sırasında "Birlik" cəmiyyəti, rus icması, Ukrayna cəmiyyəti, Alman-Azərbaycan cəmiyyəti, Azərbaycan-İsrail cəmiyyəti, Azərbaycan-Slavyan mədəniyyət mərkəzi, Tat mədəniyyət mərkəzi, "Ronai" kürd mədəniyyət mərkəzi, "Samur" ləzgi milli mərkəzi, Ahıska türklərinin "Vətən" cəmiyyəti, Talış mədəniyyət mərkəzi, Avar cəmiyyəti, dağ yəhudilərinin icması, Avropa yəhudiləri (Aşkenazi) icması, "Kapelhaus" alman mədəniyyəti icması, "Polonia" polyak mədəniyyət mərkəzi və başqaları fəaliyyət göstərirlər. İslam dinini, pravoslavlığı və iudaizmi özündə birləşdirən "Üç qardaş" təşkilatının Azərbaycan Respublikasında fəaliyyət göstərməsi multikultural mədəniyyətin daşıyıcısı olan dövlətimizin tolerantlıq ənənələrinə hörmətlə yanaşmasının bariz nümunəsidir.

Prezident İlham Əliyev ölkədəki multikultural durumu daha da möhkəm etmək məqsədilə bir sıra mühüm işlər həyata keçirir. 15 may 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb, 11 yanvar 2016-ci il tarixli Sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsini göstərmək olar. Azərbaycanda 2010-cu ilin 26-27 aprel Dünya Dini Liderlərin Sammiti, 2011-ci, 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları; 2011-ci, 2012-ci, 2013-cü, 2014-cü, 2016-cı və 2018-ci illərdə Bakı Beynəlxalq Humanitar Forumları, eləcə də 2016-cı ilin 25-27 aprel Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirilmişdir.

Azərbaycan Respublikasının sıx əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar arasında Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), UNESKO, ATƏT, BMT-ni göstərmək olar.

2019-2020-ci tədris ilindən başlayaraq, "Multikulturalizmə giriş" (3) ölkənin ali məktəblərinin bakalavriat səviyyəsi üzrə bütün ixtisasların təhsil proqramlarının humanitar fənlər blokuna daxil edilmişdir. Bu fənnin ali məktəblərdə tədris olunması zəruriliyi, müasir qloballaşma şəraitində çoxmədəniyyətli cəmiyyətlərdə mövcud olan etnik-mədəni müxtəlifliyin tənzimlənməsində multikulturalizm siyasətinin əhəmiyyətindən irəli gəlir.

Azərbaycan əsrlər boyu tolerantlıq məkanı olub. Bu gün Azərbaycanda bütün dinlərə və millətlərə məxsus abidələr qorunur, onların bərpası və yenidən qurulması dövlətin diqqət mərkəzindədir.

## ƏDƏBİYYAT


1. *Mehdiyev R.* Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi. Bakı, "Azərbaycan" qəz., 2007, 7 noyabr
2. *Niftiyev N.* Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015, 408 s.

3. *Mehdiyev R.* Multikulturalizmə giriş. Bakı: Şərq-Qərb, 2019, 429 s.
4. *Əliyev V.* Ümummilli lider Heydər Əliyevin milli siyasətində multikulturalizm faktoru – XXI əsrdə Azərbaycanı sivilizasiyalararası dialoq mərkəzinə aparan yol // "Heydər Əliyev və multikultural dəyərlər" mövzusunda keçirilən konfransın materialları, Bakı: Azərnəşr,2016.
5. Prezident İlham Əliyevin BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunda çıxışı / www/president.az
6. Prezident İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində İlham Əliyevin nitqi / https://president.az/az/articles/view/13008
7. Prezident İlham Əliyevin V Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı / www.president.az

Redaksiyaya daxil olub 06.11.2022